SMART SA AUDIT

# AUDİTOR RƏYİ

**"MEQA SIĞORTA" ASC-nin Səhmdarına və İdarə Heyətinə:**

Biz "MEQA SIĞORTA" ASC-nin ("Şirkət") 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, eləcə də əsas uçot siyasəti və digər izahedici qeydlərdən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

**Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Milli Mühasibat Uçot Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, həmçinin fırıldaqçılıq və ya səhv üzündən əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin fikrincə zəruri olan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

**Auditorun Məsuliyyəti**

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy bildirməkdir. Biz auditi Milli Mühasibat Uçot Standartlarına uyğun aparmışıq. Həmin Standartlar bizdən etik normalara riayət etməyi və və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

**Rəy**

Mən hesab edirəm ki, əldə etdiyim auditor sübutları rəy bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir. Mənim fikrimcə, 2016-cı il üzrə cəmiyyətin maliyyə (mühasibat) hesabatları milli mühasibat uçotuna uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Bakı, Azərbaycan
02.03.2017

SMART AUDİT
Emil Məmmədov
Lisenziya № 080834 ST/115